MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA

Nəzər Əliyev
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
Qoruqları İdarəetmə Mərkəzi "Lahıc" Dövlət Tarix-Mədəniyyət Qoruğu
https://doi.org/10.30546/19023.2026.1001.319

Giriş. Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Lahıc qəsəbəsi Böyük Qafqaz sıra dağlarının cənub yamacında, Girdiman çayının sahilində yerləşir. Qəsəbə şimaldan Babadağ, cənubdan isə Niyaldağ silsilələri ilə əhatələnmiş dağlıq ərazidə qərar tutur. Lahıc zəngin və rəngarəng təbiəti ilə seçilir: ətrafı qismən meşəliklərlə, qismən sıldırım qayalarla örtülü dağ silsilələri, Girdiman çayı və onun qolları üzərində yerləşən şəlalələr, ilin müxtəlif fəsillərində fərqli mənzərələr təqdim edən dağ yamacları bu əraziyə özünəməxsus gözəllik verir. Təmiz dağ havası və ilboyu günəşli günlərin çoxluğu da Lahıcın tanınmasına təsir göstərmişdir. Eyni zamanda, coğrafi mövqeyinin təbii müdafiə imkanları bu ərazidə məskunlaşmanı şərtləndirən əsas amillərdən olmuşdur.

Lahıc ərazisində məskunlaşmanın başlanğıc tarixi barədə dəqiq məlumat yoxdur. Tədqiqatçılar qeyd edirlər ki, "Lahıc" toponimi yazılı mənbələrdə ilk dəfə ərəb müəlliflərinin əsərlərində xatırlanır və eramızın IV əsrinə aid edilir. Lakin qəsəbəyə avtomobil yolu çəkilişi zamanı aşkar olunmuş və hazırda Lahıc Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan saxsı məmulatlarının b.e.ə. II–I əsrlərə aid edilməsi bu ərazidə daha qədim yaşayışın mövcudluğunu göstərir. Son illərdə qəsəbə ərazisində tapılmış ritual xarakterli saxsı qabların isə b.e.ə. II minilliyə aid edilməsi Lahıcın tarixini daha da qədimləşdirir. Beləliklə, hazırda bu ərazidə təxminən dörd min il əvvəl insanların yaşadığı və saxsı məmulatı istehsal etdiyi ehtimal olunur.

Azərbaycanın şimal-şərq bölgələrində digər etnik qruplarla yanaşı tatdilli əhali də yaşayır. Lahıcın yerli əhalisi də tatdillidir və Lahıc tatcası tat ləhcələri arasında özünəməxsus mövqeyə malikdir.

Qədim yaşayış məskənlərində əhalinin əsas məşğuliyyəti adətən əkinçilik və maldarlıq olmuşdur. Lakin Lahıcın dağlıq coğrafi şəraiti bu sahələrin geniş inkişafına imkan verməmişdir. Əkinçiliyə yararlı münbit torpaq sahələrinin azlığı, dəniz səviyyəsindən 1500 metrdən artıq yüksəklikdə yerləşməsi, qış fəslinin uzun və sərt keçməsi maldarlığın da məhdud inkişafına səbəb olmuşdur. Bu şəraitdə yerli əhali alternativ məşğuliyyət sahələrinə yönəlmiş, nəticədə sənətkarlıq inkişaf etmişdir. Ənənəvi olaraq ilkin mərhələdə dulusçuluq və daşişləmə sənətləri formalaşmış, sonralar isə dabbaqlıq, dəriçilik və toxuculuq kimi sahələr təşəkkül tapmışdır.

Lahıc misgərliyi. Lahıcda təşəkkül tapmış 40-a yaxın xalq sənətkarlığı növü arasında misgərlik xüsusi yer tutmuşdur. Bəzi tədqiqatçılar "Lahıc", "mis" və "misgərlik" anlayışlarını qarşılıqlı şəkildə əlaqələndirərək toponimin mənşəyini mis emalı ilə bağlayırlar. Rəvayətlərə görə, mis metallının kəşfindən etibarən Lahıcda misgərlik yaranmış və inkişaf etmişdir. Maraqlıdır ki, qəsəbənin yerləşdiyi ərazidə və yaxın ətrafında mis yataqları olmamışdır. Xammal əsasən Qərbi Azərbaycan ərazilərindəki yataqlardan əldə edilir, at və dəvələrlə böyük çətinliklərlə Lahıca gətirilirdi. Filizin alınması və daşınması ilə əsasən tacirlər və çarvadarlar məşğul olur, misgərlik ətrafında isə kömürçülər, körükçülər və digər yardımçı sənət sahələri formalaşırdı.

Zamanla tacirlər filizi birbaşa yataqlarda ilkin emaldan keçirərək külçə halında daşımağa başlamışdılar. Lahıcda isə əsas və ən ağır mərhələ – misin əridilməsi prosesi həyata keçirilirdi. Bunun üçün odadavamlı gildən hazırlanmış kürələr və qoşalüləli körüklər istifadə olunurdu. Əridilmiş mis xüsusi qəliblərə tökülərək "qırs" adlanan lövhələr alınır, daha sonra misdöyən

ustalar tərəfindən qızdırılıb döyülərək yarımfabrikat – "lavaşa" və "çuxur" halına salınırdı. Kustar üsulla və kömür vasitəsilə aparılan əridilmə nəticəsində mis nisbətən kövrək olurdu və onun işlənməsi yüksək ustalıq tələb edirdi.

Sonrakı mərhələdə qab hissələri hazırlanır, qaynaq edilir, döyülərək bərkidilir, çarxda işlənir, lazım gəldikdə naxışlanır və qalaylanaraq istifadəyə verilirdi. Bir çox mis qablar bir neçə hissədən ibarət olurdu və onların mütənasib, estetik formada hazırlanması ustadan həm peşəkarlıq, həm də zövq tələb edirdi. Bu səbəbdən misgərlər arasında müəyyən ixtisaslaşma mövcud idi. Sadə məişət qabları ("xara" qablar – qazan, tava, aşsüzən və s.) ilə mürəkkəb konstruksiyalı məmulatlar (hamam dəsti, aftafa, ləyən və s.) istehsal edən ustalar arasında həm peşə səviyyəsi, həm də qazanc baxımından fərqlər yaranırdı.

Hazır məhsullar tacirlər vasitəsilə çarvadarlar tərəfindən Azərbaycanın müxtəlif bölgələrinə, eləcə də Dağıstan, Gürcüstan, Türkiyə, İran, İraq və Türkmənistana daşınırdı. Minilliklər boyu mis qablar məişətdə geniş istifadə olunduğundan onlara yüksək tələbat mövcud olmuşdur. İstifadəyə yararsız hala düşmüş mis əşyalar yenidən toplanır, əridilərək təkrar xammal kimi dövriyyəyə qaytarılırdı. Bu proses Lahıcı tədricən bölgənin misgərlik mərkəzinə çevirmişdir. XIX əsrdə sənət özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır. Rəsmi məlumatlara görə, XIX əsrin 30-cu illərində Lahıcda 52 misgər dükanı fəaliyyət göstərmiş, əsrin ikinci yarısında isə 3 və daha çox usta çalışan 251 dükan qeydə alınmışdır.

Mis məmulatlarının geniş ticarəti çarvadarların fəaliyyətini də xüsusi əhəmiyyətli etmişdir. Onlar böyük karvanlarla yüzlərlə pud ağırlığında məhsulu müxtəlif məntəqələrə daşıyırdılar. Uzun səfərlər zamanı vaxt itirməmək üçün Lahıc ustaları tərəfindən "simuzər" adlı xüsusi suqızdıran qab hazırlanmışdır. Bu alət yol şəraitində tez bir zamanda su qaynatmağa imkan verirdi və çarvadarlar üçün olduqca əhəmiyyətli idi. Rəvayətlərə görə, simuzərlər XIII–XIV əsrlərdən istifadə olunmuş, sonrakı dövrlərdə isə onun iş prinsipi əsasında rus samovarlarının formalaşdığı ehtimal edilir. Forması və adı fərqli olsa da, işləmə prinsipi baxımından simuzərlə samovar arasında oxşarlıq mövcuddur.

XX əsrdə migərlik. XX əsrin əvvəllərindən etibarən yeni metal növlərinin və sənaye üsulu ilə hazırlanmış məmulatların məişətə daxil olması, eləcə də elektrik enerjisinin geniş tətbiqi mis qabların istifadəsini tədricən azaltdı. Xüsusilə II Dünya müharibəsi və ondan sonrakı ağır iqtisadi dövr misgərlik sənətinə ciddi zərbə vurdu. Lahıcda əvvəllər fəaliyyət göstərən çoxsaylı dükanlar bağlandı, sahibkarlıq fəaliyyəti məhdudlaşdırıldı, sənətkarlar isə dolanışıq məqsədilə Azərbaycanın müxtəlif rayon və şəhərlərinə üz tutaraq xırda sənətkarlıq fəaliyyəti ilə məşğul olmağa başladılar. Bu gün ölkənin müxtəlif bölgələrində özünü misgər və ya misgər nəslindən hesab edən şəxslərin əksəriyyəti Lahıc mənşəlidir.

1960-cı illərdən etibarən Lahıcda misgərlik sənəti müəyyən dirçəliş mərhələsinə qədəm qoydu. Qəsəbədə dövlətə məxsus istehsalat kombinatı yaradıldı və bacarıqlı ustalar burada işə cəlb olundu. Misgərlər kombinat tərəfindən xammalla təmin edilir, dövlət sifarişi əsasında məhsul hazırlayır və əməkhaqqı alırdılar. Bu dövrdə xammal artıq yerli filizdən deyil, Rusiyadan gətirilən sənaye üsulu ilə istehsal olunmuş yüksək keyfiyyətli mis təbəqələrdən ibarət idi. Elektrik alətlərinin tətbiqi istehsal prosesini nisbətən asanlaşdırmışdı. Təxminən 60-a yaxın usta – həm təcrübəli sənətkarlar, həm də gənc nəsil nümayəndələri – Sovet hakimiyyətinin süqutuna qədər kombinat çərçivəsində fəaliyyət göstərdilər.

Müstəqillik dövründə iqtisadi münasibətlərin dəyişməsi nəticəsində istehsalat kombinatı fəaliyyətini dayandırdı və sənətkarların bir qismi yenidən başqa bölgələrə köçdü. Hazırda qəsəbədə yalnız az sayda usta fəaliyyət göstərir. Onların işi əvvəlki dövrlərdən fərqlənir:

əvvəllər əsasən funksional məişət qabları istehsal olunduğu halda, bu gün bazar tələbatı daha çox dekorativ, naxışlı və bəzəkli mis məmulatlarına yönəlmişdir. Bununla yanaşı, Lahıcda fəaliyyət göstərən ustalar yüksək peşəkarlıq səviyyəsi ilə seçilir və respublikanın digər yerlərində icrası çətin olan misgərlik işlərini yerinə yetirmək imkanına malikdirlər.

Misgərlik bu gün. Misgərlik fiziki və texniki baxımdan mürəkkəb sənət sahəsidir. Mis metalının fiziki-kimyəvi xüsusiyyətlərini, onun emal və formalaşdırılma üsullarını, həmçinin köməkçi materialların xassələrini mənimsəmək uzun illər təcrübə tələb edir. Hətta ən təcrübəli ustalar belə ömür boyu öyrənmə prosesində olurlar. Bu sənət eyni zamanda ciddi fiziki güc tələb edir.

Hər hansı məmulatın hazırlanmasına başlamazdan əvvəl usta onun formasını, ölçülərini və neçə hissədən ibarət olacağını əvvəlcədən müəyyənləşdirir, uyğun qalınlıqda xammal seçir. Daha sonra mis təbəqədən və ya "lavaşa"dan müvafiq kəsimlər edilir (dairəvi, düzbucaqlı, konusvari və s.). Hissələr qızdırılıb döyülərək lazımi formaya salınır: dairəvi kəsimlər yarımkürəyə, düzbucaqlılar silindrik formaya, digərləri isə konusvari formaya gətirilir. Formalaşdırılmış hissələr qaynaq edilərək birləşdirilir. Qaynaq üçün usta tərəfindən sink, bürünc, tənə və duz qatışığından hazırlanmış xüsusi maddə istifadə olunur. Dəstək və ya tutacaq kimi hissələr əsasən mis mıxlarla gövdəyə bərkidilir.

Forma hazır olduqdan sonra məmulat son dəfə döyülərək həm hamarlanır, həm də möhkəmləndirilir. Naxış tətbiq ediləcəksə, bu mərhələ formalaşdırmadan sonra həyata keçirilir. Naxışlanma ya zindan üzərində, ya da məmulatın içi daha tez əriyən metal (məsələn, qurğuşun) ilə doldurulmaqla icra edilir. Sonradan həmin metal boşaldılır. Məmulatın təyinatından asılı olaraq o, turşu məhlulu ilə təmizlənir, qalaylanır və ya cilalanır. Bütün proses boyunca misgər müxtəlif formalı zindanlar, çəkiclər, qayçılar, kəlbətinlər, metal qələmlər, pərgar və xətkeşlərdən istifadə edir; alət seçimi ustanın peşəkarlığını müəyyənləşdirən əsas amillərdəndir.

Misgərlik anlayışı əsasən xam metaldan yeni məmulatın hazırlanmasını ifadə edir. Bu sənətin ətrafında isə körükbasanlar, misdöyənlər (tapunçular), qalayçılar və həkkaklar kimi ixtisas sahələri formalaşmışdır. Ənənəvi misgərlik qaydalarına riayət etmək mühüm şərtdir, çünki hər bir məmulat milli üslub xüsusiyyətləri və simvolik məna daşıyır. Təcrübəli ustalar məmulatın üslubuna əsasən onun mənşəyini – hətta regionunu belə müəyyən edə bilirlər.

Bu gün misgərlik daha çox dekorativ istiqamətdə inkişaf edir və naxışlama işi ilə məşğul olanlar üstünlük təşkil edir. Lakin ənənəvi ornamentlərin öyrənilməsi və düzgün tətbiqi vacibdir ki, milli sənət nümunələrinin mənsubiyyəti qorunub saxlanılsın. Tarixən formalaşmış Lahıc misgərlik məktəbi bu qəsəbəni sənətin beşiyi kimi tanıtmışdır. 2015-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə "Lahıc misgərlik sənəti" YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu fakt Lahıc misgərlik ənənələrinin beynəlxalq səviyyədə tanınmasının və ustaların əsrlər boyu zəhmətinin yüksək qiymətləndirilməsinin göstəricisidir.

Nəticə. Lahıc misgərlik sənəti əsrlər boyu formalaşmış və nəsildən-nəslə ötürülərək zənginləşmiş ənənəvi sənət sahəsidir. Coğrafi şəraitin kənd təsərrüfatına məhdud imkanlar yaratması yerli əhalini alternativ məşğuliyyət istiqamətlərinə yönəltmiş, nəticədə misgərlik Lahıcın əsas iqtisadi və mədəni dayaqlarından birinə çevrilmişdir. Xammalın uzaq bölgələrdən gətirilməsinə baxmayaraq, burada yüksək peşəkarlıq səviyyəsinə malik ustalar yetişmiş, mürəkkəb texnoloji mərhələlərdən ibarət istehsal prosesi formalaşmışdır.

XIX əsrdə misgərlik özünün ən yüksək inkişaf mərhələsinə çatmış, Lahıc regionun aparıcı sənətkarlıq mərkəzinə çevrilmişdir. XX əsrdə sənayeləşmə və ictimai-siyasi dəyişikliklər

nəticəsində bu sahə tənəzzül dövrü keçirmiş, lakin 1960-cı illərdən etibarən müəyyən dirçəliş mərhələsi yaşamışdır. Müstəqillik dövründə isə misgərlik daha çox dekorativ istiqamətdə inkişaf etmiş, turizm və mədəni irs kontekstində yeni məzmun qazanmışdır.

Bu gün Lahıc misgərlik sənəti yalnız maddi istehsal sahəsi deyil, həm də milli kimliyin, estetik düşüncənin və ənənəvi bilik sisteminin daşıyıcısı kimi çıxış edir. 2015-ci ildə "Lahıc misgərlik sənəti"nin YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi bu sənətin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. Bütün bunlar Lahıc misgərlik məktəbinin qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsinin zəruriliyini bir daha təsdiq edir.

Ədəbiyyat:

1. Xəlilli, F. Şamaxı Tarix-Diyarşünaslıq Muzeyi. Bakı: Elm və Təhsil, 2009. 204 s.
2. Cəbiyev, Q., Xəlilli, F. Azərbaycanın İsmayıllı bölgəsində sufizmin tarixi mərhələləri // III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumunun materialları (17–18 may 2017, Şamaxı, Azərbaycan). Bakı, 2017, s. 674–677.
3. Xəlilli, F., Yusifova, T. Girdiman Bələdçi Klubu: İsmayıllının mədəni irsi kataloqu. Bakı: Elm və Təhsil, 2018. 48 s.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300